***Bu şəhər təkcə sürətli inkişafı ilə seçilmir. Həm də keçirdiyi bütün tədbirlər–festivallar, müsabiqələr, görüşlər, toplantılar,müsabiqələr, saysız-hesabsız qonaq qəbulları, bir sözlə, şəhərdə təşkil olunan hər bir mərasim o qədər çox və rəngarəngdir ki, sözün doğrusu, onları biz jurnalistlər bəzən oxucuya operativ çatdıra bilmirik. Təkcə son 3-4 gün ərzində bir-birinin ardınca o qədər maraqlı tədbirlər keçirilib ki, biz onları ümumiləşdirərək, bir yazıda söhbət açmağı məqsədəuyğun saydıq.***

# Gəncə etimadı şərəflə doğrultdu






## Möhtəşəm festival

Gəncədə Beynəlxalq Şərab Festivalı keçirmək artıq ənənə şəklini alıb.Hazırkı festival da bu ənənənin davamı–dördüncüsü idi və şəhər həmişə olduğu kimi, ona da çox ciddi hazırlaşmışdı. Gəncə Şəhər İcra Hakimiyyətinin, iqtisadi inkişaf və sənaye, kənd təsərrüfatı, xarici işlər nazirliklərinin, Azərbaycanda İxracatın və İnvestisiyaların Təşviqi Fondunun və ölkəmizin Fransadakı səfirliyinin birgə təşkilatçılığı ilə keçirilən budəfəki festivalın ikinci gününə şəhərin Gəncəçay park bulvarı önündən start verildi. Ona görə ikinci gün deyirik ki, əslində, bu tədbirə bir gün əvvəl, ayrı-ayrı yerli və xarici şirkətlərin istehsal etdikləri məhsulların dequstasiyası ilə başlanmışdı və çox təcrübəli mütəxəssislər 100 ballıq sistemlə qalibləri müəyyənləşdirmişdilər. Tədbirə Azərbaycan, Fransa, Bolqarıstan, Moldova, Gürcüstan, Ukrayna və bir sıra digər xarici ölkələrin şərab istehsalçıları, distribütorləri və istehlakçıları qatılmışdılar. Burada yerli və xarici şərab istehsalı ilə məşğul olan 20-yə yaxın istehsal müəssisəsinin məhsulları nümayiş etdirilirdi.



Festivala "Kitabi-Dədə Qorqud" dastanından Qazan xanın şərab içməsi səhnəsini əks etdirən meydan tamaşası ilə başlanıldı. Tamaşa festival iştirakçıları və qonaqlar tərəfindən maraqla qarşılandı. Simfonik orkestrin ifasında "Koroğlu" operasından uvertüra, Kukla Teatrının hazırladığı səhnə, uşaq bağçaları kollektivlərinin üzüm rəqsi, cizgi filmi qəhrəmanlarının rəngarəng rəqsləri alqışlarla qarşılandı.

Sonra yerli və xarici istehsalçılar tərəfindən şərabçılıq məhsullarının təqdimatı oldu və bir gün əvvəl keçirilən "İkinci salxım" dequstasiya müsabiqəsinin qalibləri medal və diplomlarla mükafatlandırıldı. Bütövlükdə, müsabiqənin 14 qalibi qızıl, gümüş və bürünc medala layiq görüldü.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev Fransa və digər xarici ölkə nümayəndələrinin iştirak etdikləri festivalın mərasimi diqqətə çatdırdı. Bildirildi ki, festivalın əsas məqsədi şərab məhsullarını nümayiş etdirmək, yerli şərab bazarı iştirakçılarını bir araya gətirmək, Azərbaycanın şərab məhsullarının xarici bazarlara çıxarılmasını dəstəkləməkdən ibarətdir.

Fransanın Konyak şəhərinin meri Mişel Qurinçasdan, Fransanın Burqundiya regionunun Yon vilayətinin Ali Şurasının prezidenti Andre Vilye, Varna şəhərinin meri İvan Partnix festival və ölkəmizlə bağlı yüksək fikirlər söylədilər, məmnun olduqlarını dilə gətirdilər. Bu sahədə beynəlxalq əməkdaşlığı təşviq etmək, şərab istehlakı mədəniyyətini formalaşdırmaq və şərab ənənələrini qoruyub saxlamağın vacibliyini vurğuladılar.

Sonra festival iştirakçıları nümayiş etdirilən şərabların dadına baxdılar. Gəncənin "Təndir çörəyi" və yerli pendiri də şərablarla yanaşı, dequstasiyadan keçirildi. Kulinariya şousunda qonaqlar müxtəlif növ üzümlərin, şirniyyatların, Azərbaycan və Gəncə mətbəxinin ləziz təamlarından daddılar.

Onlar, həmçinin rəssamların əl işlərindən ibarət rəsm əsərlərinə, dekorativ tətbiqi sənət nümunələrinə, ayrı-ayrı kollektivlərin rəqs və musiqi nömrələrinə də tamaşa etdilər. Festival iştirakçıları tərəfindən qədim məişət əşyaları, Azərbaycanın adət və ənənələrini əks etdirən güşələr də maraqla qarşılandı.

Günortadan sonra Azərbaycanla Fransa regionları və şəhərləri arasında əməkdaşlığa dair I seminar keçirildi. Şəhərin Heydər Əliyev Mərkəzində keçirilən seminarda Tovuz, Naftalan, Goranboy, Şəmkir, İsmayıllı, Şəki rayon icra hakimiyyətlərinin başçıları və müavinləri, o cümlədən Ukrayna, Moldova, Fransa, Bolqarıstan, Gürcüstan, Meksika, Braziliya, Rusiya, Belarus və digər ölkələrdən olan əcnəbi qonaqlar iştirak edirdilər. Konfransda Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev Prezident İlham Əliyev tərəfindən təsdiq olunmuş dövlət proqramlarında bu sahənin inkişafına xüsusi önəm verildiyini, üzümçülük və şərabçılığın inkişafı üçün böyük potensialın olduğunu qeyd etdi.

İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov çıxış edərək bildirdi ki, bu qəbildən olan tədbirlərin keçirilməsi ölkələr arasında iqtisadi əlaqələrin daha da möhkəmlənməsinə xidmət edir. Təbii ki, bu əlaqələr iqtisadi sahənin inkişafına da öz töhfəsini verəcək.

Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Tofiq Zeynalov Konyak şəhəri ilə bu sahədə əməkdaşlıqdan, Şəki Şəhər İcra Hakimiyyəti başçısının müavini Həsən Həsənov isə Kolmar şəhəri ilə şərabçılığın inkişafı sahəsində həyata keçirilən tədbirlərdən danışdılar.

Fransanın Burqundiya regionunun Yon vilayətinin Ali Şurasının prezidenti Andre Vilye, Konyak şəhərinin meri Mişel Qurenşa, Bordo şəhər meriyasının Azərbaycan üzrə nümayəndəsi An-Sofi Motyliski bu gün Gəncədə keçirilən və artıq ənənəvi xarakter daşıyan festivalın Azərbaycan-Fransa iş adamları arasında əlaqələrin güclənməsində, qeyri-neft sektorunun ixrac qabiliyyətli sahələrindən olan şərabçılığın inkişafında, bu sahədə təcrübə mübadiləsində əhəmiyyətli olduğunu diqqətə çatdırdılar.



Fransanın Azərbaycandakı səfiri Orelia Buşez və Azərbaycanın Fransadakı səfiri Elçin Əmirbəyov Fransanın şərabçılıq sahəsində böyük təcrübəyə malik olduğunu qeyd etdilər. Hər iki səfir şərabçılıq kimi ənənəvi sahələrin inkişafının prioritet olduğunu vurğuladılar.

Seminarda Azərbaycan və Fransa arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğu, əməkdaşlığın genişlənməsində dövlət başçılarının qarşılıqlı səfərlərinin və keçirilən görüşlərin mühüm əhəmiyyəti də vurğulandı.

Fransa regionları və əməkdaşlığa dair I seminar iştirakçılarına sonda xatirə hədiyyələri təqdim olundu.

## Varna və Kutaisi şəhərlərinin merləri şəhər icra hakimiyyətində

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev tədbirdə iştirak edən Varna şəhərinin meri İvan Portnix və onun rəhbəri olduğu nümayəndə heyəti ilə görüşdü. İcra hakimiyyətinin başçısı qədim mədəniyyət və sənaye şəhəri olan Gəncədə nümayəndə heyətini salamlamaqdan məmnun olduğunu bildirdi və Gəncənin "2016-cı il Avropa Gənclər Paytaxtı" seçilməsi, şəhərin tarixi, mədəniyyəti, sənaye potensialı haqqında ətraflı məlumat verdi. Eyni zamanda, Elmar Vəliyev qonağa Gəncə şəhərində dünyaya göz açmış Nizami Gəncəvi, Məhsəti Gəncəvi, Cavad xan, Mirzə Şəfi Vazeh kimi şəxsiyyətlər haqqında danışdı, Gəncə -2016 Avropa Gənclər Paytaxtı layihəsi çərçivəsində həyata keçirilən yerli və beynəlxalq tədbirlərdən söz açdı. Bildirdi ki, Avropa Gənclər Paytaxtı olmuş şəhərlərlə birgə layihələrin icrası, bu sahədə Gəncənin təcrübəsinin öyrədilməsi gələcək planlara daxildir.

Varna şəhərinin meri İvan Portnix şəhər icra hakimiyyətinin başçısına səmimi qəbula görə minnətdarlığını bildirdi. Qeyd etdi ki, Varna və Gəncə şəhərləri arasında ikitərəfli əlaqələrin inkişaf etdirilməsi, gələcək əməkdaşlığın və dostluq münasibətlərinin bundan sonra da möhkəmləndirilməsi istiqamətində səylərini əsirgəməyəcək. Dedi ki, 2017-ci il üçün Varna şəhərinin Avropa Gənclər Paytaxtı seçilməsi, rəhbərlik etdiyi şəhərin bu titula sahib olması çox sevindirici haldır. Onlar bu layihənin həyata keçirilməsində Gəncə şəhərinin təcrübəsindən yararlanacaqlarını bildirdi. Mer Gəncə Şəhər İcra Hakimiyyətinin başçısını Varnada keçiriləcək açılış tədbirinə dəvət etdi. Görüşün yekununda iki şəhər arasında gələcək əməkdaşlığa dair xartiya imzalandı. Sonda Elmar Vəliyev merə Gəncəni əks etdirən bir neçə xatirə hədiyyəsi təqdim etdi.

Elə həmin gün icra hakimiyyətinin başçısı Gəncədə səfərdə olan Gürcüstanın Kutaisi şəhərinin meri Şota Murquliani və onun rəhbəri olduğu nümayəndə heyətini qəbul etdi. Elmar Vəliyev qonaqları salamlayaraq onları Nizami yurdu qədim Gəncə şəhərində görməkdən məmnun olduğunu bildirdi. Görüşdə iki qardaş şəhər arasında elmi mədəni əlaqələrin bundan sonra da yüksək templə inkişaf edəcəyinə əminlik ifadə olundu. Bildirildi ki, hər iki tərəfin münasibətlərin inkişafında maraqlı olması qardaş şəhərlərlə yanaşı, ölkələrimiz və xalqlarımızın mənafeyinə də xidmət edir. Şəhər icra hakimiyyətinin başçısı diqqətə çatdırdı ki, Gəncə ilə Kutaisi arasındakı əməkdaşlığa yeni nəfəsin verilməsi qardaşlaşan hər iki şəhər arasında əlaqələrin yeni müstəviyə qaldırılmasına, imzalanan memorandum isə bu məqsədə çatmağa təkan verəcək.

Kutaisi meri Şota Murquliani şərab festivalında iştiraka dəvət aldığı üçün şəhər icra hakimiyyətinin başçısına bir daha təşəkkürünü bildirdi. Xatırlatdı ki, Gəncə ilə Kutaisi uzun illərdir qardaş şəhərlərdir. Bu şəhərlərin turizm potensialı, iqtisadiyyatı, hətta əhalisinin yaşam tərzində də oxşarlıqlar var. Şota Murquliani Kutaisi Universitetinin aqrar fakültəsi ilə Gəncədə fəaliyyət göstərən Azərbaycan Dövlət Aqrar Universiteti arasında birgə əməkdaşlığa dair işçi qrupunun yaradılmasını da müsbət qarşıladığını qeyd etdi. Əminliklə bildirildi ki, görüşün nəticələri müsbət olacaq və iki şəhər qardaş olduğunu əməli işlərlə ortaya qoyacaq.



Görüşdə iştirak edən Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru, professor İbrahim Cəfərov iki ali təhsil ocağının müəllim və tələbələrinin daha sıx əməkdaşlıq etməsini, eyni zamanda, aqrar sahədən bəhs edən bir jurnalın nəşr olunmasını təklif etdi. Rektorun təklifi nümayəndə heyəti tərəfindən müsbət qarşılandı.

Görüşün yekununda qarşılıqlı olaraq xatirə hədiyyələri təqdim edildi.

## Əlvida Gəncə, salam Varna!

Axır ki, estafetin ötürülməsi anı gəlib çatdı. Bu münasibətlə keçirilən bağlanış mərasimində Gəncə ŞİH-in başçısı Elmar Vəliyev, 2017-ci il Avropa Gənclər Paytaxtı titulunu qazanan Varna şəhərinin meri İvan Portnix, Varna Şəhər Bələdiyyəsinin, Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının rəhbər nümayəndələri, Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun rəhbərliyi, Milli Məclisin deputatları, xarici ölkələrin diplomatik nümayəndələri, təşkilat sədrləri, mətbuat nümayəndələri, könüllülər və digər rəsmi qonaqlar iştirak edirdilər. Dövlət himninin səslənməsi ilə başlanan tədbirdə Azərbaycanın, o cümlədən Gəncənin mədəniyyəti, qədimliyi, tolerantlığı, multikulturalizmi, əhalisi ilə yanaşı, "Gəncə Avropa Gənclər Paytaxtı – 2016" çərçivəsində həyata keçirilən layihələri özündə əks etdirən videoçarx nümayiş olundu.

Tədbiri giriş sözü ilə Elmar Vəliyev açaraq iştirakçıları salamladı və qonaqları Avropanın Gənclər Paytaxtında, Azərbaycanın qədim və zəngin mədəniyyətə malik ən gözəl şəhərlərindən biri, dahi Azərbaycan şairi Nizami Gəncəvinin yurdu olan Gəncədə görməkdən məmnun olduğunu bildirdi. Şəhər rəhbəri qeyd etdi ki, bu gün gənclər siyasəti Azərbaycan dövlət siyasətinin əsas prioritet istiqamətlərindən biridir və bu siyasət ölkədə uğurla icra olunur. Təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasətinin cənab Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirildiyini xüsusi vurğulayan Elmar Vəliyev çıxışını ümummilli lider Heydər Əliyevin "Azərbaycanın gələcəyi, Azərbaycanın gəncləridir" deyimi ilə bitirdi.

Tədbirdə gənclər və idman nazirinin müavini İntiqam Babayev çıxış edərək bildirdi ki, Gəncənin Avropa Gənclər paytaxtı seçilməsi ilə əlaqədar olaraq ölkə Prezidentinin sərəncamı ilə xüsusi tədbirlər planı hazırlanıb və müxtəlif tədbirlər həyata keçirilib. Nazir müavini qeyd etdi ki, dövlət siyasətinin əsas istiqaməti gənclərin hərtərəfli inkişafı, cəmiyyətdə müxtəlif sahələrdə iştirak etmələrinə fəal şərait yaradılmasından ibarətdir.

Tədbirdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin gənclər təşkilatları ilə iş sektorunun müdiri Vüsal Quliyev çıxış edərək dedi ki, ölkədə çox uğurla həyata keçirilən gənclər siyasətində gənclər təşkilatlarının rolu danılmazdır.



Varna şəhərinin meri İvan Portnix iştirakçıları salamlayaraq, qonaqpərvərliyə görə öz minnətdarlığını bildirdi. Şəhər meri Varna haqqında geniş məlumat verdi. Qarşılıqlı əlaqələr nəticəsində bütün sahələrdə inkişafın olacağını qeyd edən İvan Portnix xüsusi vurğuladı ki, Varna şəhəri qazandığı titulu layiqincə təmsil edəcək.

Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun icraçı direktoru Fərhad Hacıyev çıxışında dedi ki, Azərbaycanda həyata keçirilən gənclər siyasəti dünya üçün bir örnəkdir.

Dövlətimizin gənclərə diqqəti və qayğısının hər sahədə özünü göstərdiyini qeyd edən Fərhad Hacıyev bildirdi ki, Azərbaycanın gənclər siyasəti çox uğurlu bir modeldir və bu gün bu model öz bəhrəsini verir. Tədbirdə qeyd olundu ki, cənab İlham Əliyevin tapşırığına əsasən "Gəncə Avropa Gənclər Paytaxtı – 2016" çərçivəsində həyata keçirilən layihələrə 9 nazirlik və 2 komitə dəstək olub. Bu titulu qazanmaqla şəhərin əldə etdiyi nailiyyətlərdən danışılaraq qeyd edilib ki, Gənclər evi, Avropa Gənclər Paytaxtı İctimai Birliyinin ofisi, Kitab evi, Gəncə Avropa Gənclər Paytaxtı Parkı və başqa obyektlərin açılması ölkə rəhbərinin Nizami yurduna olan diqqət və qayğısının bariz nümunəsidir.

Bağlanış mərasimində bir il ərzində Gəncədə reallaşan layihələr və tədbirlər xatırlanıb. Ötən bir il ərzində şəhərdə 25 beynəlxalq, 18 yerli olmaqla, ümumilikdə, 43 layihə reallaşdırılıb. Ən böyük layihələr isə Avropa və Türk Şurasının, o cümlədən "Tarixin canlı səhifələri" gənclər festivalları olub. Bu tədbirlərin həyata keçirilməsində 360 könüllü iştirak edib. Gəncə Avropa Gənclər Paytaxtı - 2016 layihəsinin rəsmi bağlanış mərasimində nümayiş olunan video-çarxlar vasitəsi ilə festivalların ən maraqlı anları bir daha xatırlandı. Daha sonra Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev Avropa Gənclər Paytaxtının rəmzi açarını Bolqarıstanın Varna şəhərinin meri İvan Portnixə təqdim etdi.

Tədbirin sonunda "Gəncə Avropa Gənclər Paytaxtı – 2016" layihəsinin yüksək səviyyədə təşkil olunmasında,təbliğatında yaxından iştirak etdikləri üçün gənclər təşkilatlarının, dövlət və biznes qurumlarının, mətbuat nümayəndələrinin bir qrupuna fəxri fərmanlar və təşəkkürnamələr verildi.

Bəli, Gəncə rəmzi açarı Varnaya verdi. Özü də qürurla, iftixarla, sevinclə. Bu bir ildə qədim Nizami yurdu sübut etdi ki, Gənclər Paytaxtı adına təsadüfən yiyələnməyib. Bu şəhər daha böyük titullara layiqdir. 2017-ci ildə MDB-nin Mədəniyyət Mərkəzi adını qazanması da onu göstərir ki, hələ uğurlar qabaqdadır. Rəmzi açar verilir, rəmzi açar qəbul olunur. Yəni əlvida Gəncə, salam Varna!

***Hamlet QASIMOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***